**“ASPİRANTLARA, ALİ, ORTA İXTİSAS VƏ PEŞƏ MƏKTƏBLƏRİ VƏ PEŞƏ LİSEYLƏRİNİN TƏLƏBƏLƏRİNƏ VƏ ŞAGİRDLƏRİNƏ VERİLƏN TƏQAÜDLƏRİN ARTIRILMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikasının dövlət təhsil müəssisələrində təhsil alan aspirantlara, dövlət ali, orta ixtisas, peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə

**QƏRARA ALIRAM :**

1. Dövlət büdcəsinin vəsaiti hesabına təhsil alan aspirantlar, dövlət ali, orta ixtisas, peşə məktəblərinin və peşə liseylərinin tələbələri və şagirdləri üçün müəyyən edilmiş aylıq təqaüdlər artırılaraq məbləğlərdə müəyyən edilsin :

| | |
|---|---|
| **1.1 Aspirantlara** | 90 manat |
| **1.2 Ali məktəblərdə :** | |
| adlı təqaüd alan tələbələrə | 90 manat |
| **magistr pilləsi üzrə :** | |
| əla qiymətlərlə oxuyan tələbələrə | 75manat |
| əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə | 60 manat |
| yaxşı - kafi qiymətlərlə oxuyan tələbələrə | 40 manat |
| **baklavr pilləsi üzrə :** | |
| əla qiymətlərlə oxuyan tələbələrə | 70 manat |
| əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə | 55 manat |
| yaxşı - kafi qiymətlərlə oxuyan tələbələrə | 35 manat |
| **1.3 Orta ixtisas məktəblərində :** | |
| əla qiymətlərlə oxuyan tələbələrə | 35 manat |
| əla və yaxşı qiymətlərlə oxuyan tələbələrə | 30 manat |
| yaxşı - kafi qiymətlərlə oxuyan tələbələrə | 25 manat |
| **1.4 peşə məktəbləri və peşə liseylərinin** | 25 manat |

| | | |
|---|---|---|
| | şagirdlərinə | |

2. «Aspirantlara, ali, orta ixtisas və peşə məktəblərinin və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 1 fevral tarixli 1927 nömrəli sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, N 2 maddə 108) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam 2008-ci il sentyabrın 1-dən tarixindən qüvvəyə minir.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri , «12 » sentyabr 2008-ci il***

---

**Azərbaycan Respublikasi Təhsil Nazirinin əmri**

"Aspirantlara, ali, orta ixtisas və peşə məktəbləri və peşə liseylərinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamınının icrası ilə əlaqədar

**ƏMR EDİRƏM :**

1. Azərbaycan Respublikası Prezidentinin göstərilən Sərəncamı rəhbərlik və icra üçün qəbul edilsin.

2. Təqaüdlərin ödənilməsi dövlət büdcəsində həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

3.Təhsil müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, Sərəncamın yerlərdə icrasını təmin etsinlər.

4. İqtisadiyyat şöbəsi (H.Zeynalov), Ali və orta ixtisas təhsili şöbəsi (İ.Mustafayev) və Texniki peşə təhsili şöbəsi (N.Məmmədov) Sərəncamdan irəli gələn məsələlərin həllində təhsil müəssisələrinə

lazımi köməklik göstərilsin.

5.Ümumi şöbə (İ.Mirzəyev) əmrin çoxaldılıb təhsil müəssisələrinə göndərilməsini təmin etsin.

6. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir Mərdanov***

***Təhsil naziri***

***16.09.2008-ci il***